**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_________________

27.03.2024-cü il

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Əmtəə bazarının səmərəliliyi və rəqabət” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı

<table>
<tr><th>Sıra №-si</th><th>İndikatorlar və ya tematik sahələr</th><th>Mövcud vəziyyət (son hesabat üzrə)</th><th>Metodologiya</th><th>Görüləcək tədbirlər</th><th>Son icra müddəti</th><th>İcra orqanları</th><th>Məsul şəxslər</th></tr>
<tr><td rowspan="4">1.</td><td rowspan="4">Bazar dominant-lığının səviyyəsi<br><br>Xidmət sahələri üzrə rəqabət</td><td rowspan="4">-</td><td rowspan="4">“Ölkənizdə korporativ fəaliyyəti necə xarakterizə edirsiniz?” sorğusuna cavab: [1 = bir neçə biznes qrupu üstünlük təşkil edir; 7 = bir çox firma arasında yayılmışdır].<br><br>“Ölkənizdə aşağıdakı xidmətlərin təminatı nə dərəcədə rəqabətlidir?: (a) peşəkar xidmətlər (hüquqi xidmətlər, mühasibat uçotu, mühəndislik və s.); (b) pərakəndə xidmət; (c) şəbəkə sektoru (telekommunikasiya, kommunal xidmətlər, poçt, nəqliyyat və s.)” Cavab 1-dən (rəqabətli deyil) 7-yə (yüksək rəqabətlidir) qədər dəyişir.</td><td>1. Təbii inhisar subyektlərinin fəaliyyətlərində qanunvericiliyə riayət edilməsi vəziyyəti üzrə təhlillərin aparılması, nəticəsindən asılı olaraq lazımi tədbirlərin görülməsi və zərurət yarandıqda müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi</td><td rowspan="4">Mütəmadi</td><td rowspan="4">İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti - AİBNDX)</td><td rowspan="4">Xamis Seyranov, Şahin Nağıyev, Gülnar Hüseyn</td></tr>
<tr><td>2. İnhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması, habelə inhisar subyektlərinin fəaliyyət göstərdiyi bazarlarda müvafiq araşdırmaların aparılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi</td></tr>
<tr><td>3. Haqsız rəqabətin qarşısının alınması və aradan qaldırılması, habelə ayrı-ayrı əmtəə bazarlarında müvafiq araşdırmaların aparılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi</td></tr>
<tr><td>4. Rəqabət təhlillərinin aparılması prosesində qabaqcıl texnologiyaların və süni intellektin tətbiq olunması</td></tr>
</table>

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **5.** Rəqabət Məcəlləsinin tətbiqi ilə əlaqədar müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi (AİBNDX), Ədliyyə Nazirliyi, digər aidiyyəti qurumlar | Xamis Seyranov, Şahin Nağıyev, Gülnar Hüseyn |
| | | | | **6.** Haqsız rəqabətin əlamətləri barədə istehlakçıların və sahibkarlıq subyektlərinin məlumatlandırılması və onların haqsız rəqabətin qarşısının alınmasında iştiraka təşviq edilməsi, mediada və sosial şəbəkələrdə bu məqsədlə zəruri məlumat və materialların yerləşdirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | |
| 2. | **Alıcıların istehlakçılıq meyarları** | - | “Sizin ölkənizdə alıcılar satınalma qərarları qəbul edərkən nəyə əsaslanırlar?” sorğusuna alıcının cavabı [1=yalnız ən aşağı qiymətə əsaslanırlar, 7= yaxşı keyfiyyət göstəricisinə əsaslanırlar]. | **1.** İstehlakçıların hüquqları barədə onların maarifləndirilməsi istiqamətində işlərin davam etdirilməsi | | | Elşən Cəfərov, Gülnar Hüseyn, Vaqif Ataşov |
| | | | | **2.** Sahibkarların istehlakçıların hüquqlarının qorunmasında fəallığının artırılması | | | |
| | | | | **3.** İstehlakçıların hüquqlarının pozulması ilə əlaqədar daxil olmuş müraciətlərə mövcud qanunvericiliyin tələblərinə uyğun baxılması və görülmüş işlərə dair məlumatların media və sosial şəbəkələr vasitəsilə yayılmasının təmin olunması | | | |
| | | | | **4.** İstehlakçıların hüquqlarının daha səmərəli müdafiəsi üçün beynəlxalq təcrübə öyrənilməklə qanunvericilik aktlarına əlavə və dəyişikliklərin edilməsi barədə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.07.2024 | | |
| | | | | **5.** İstehlakçıların hüquqlarının müdafiəsini həyata keçirən dövlət qurumları və QHT-lərlə daha səmərəli əməkdaşlığın təşkili | Mütəmadi | | |
| | | | | **6.** Məhsulların texniki, keyfiyyət və digər göstəricilərinin etiketdə (markalanmada) tələb olunan normalara uyğun əks etdirilməsi üzərində zəruri nəzarət tədbirlərinin həyata keçirilməsi, bu istiqamətdə müvafiq məlumatlandırma işlərinin aparılması | | | |

| Qlobal İnnovasiyalar İndeksi | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3. | **4.3.2 Yerli sənayenin diversifika-siyası** | 68-ci yer, 83,1 bal | Mükəmməl səviyyədə diversifikasiya olunmuş sənaye sistemi olan ölkənin indeksi 0-a yaxın olduğu halda, yalnız bir sənaye alt sektorunda fəal olan ölkənin indeksi 1-ə bərabər olacaqdır (ən az şaxələndirilmiş). | **1.** Ələt azad iqtisadi zonasının mərhələli inkişaf konsepsiyasının hazırlanması, ərazisinin zonalaşdırılması və müvafiq infrastrukturun yaradılması istiqamətində tədbirlərin görülməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi | Ceyhun Həsənov |
| | | | | **2.** Prioritet emal sənayesi sahələrinin inkişafı istiqamətində tədbirlərin görülməsi | | | |
| | | | | **3.** Yeni sənaye zonalarının yaradılması istiqamətində tədbirlərin görülməsi | | | |
| | | | | **4.** *Rəqabətliliyin təmin edilməsi baxımından sənaye sahələrinin diversifikasiyası siyasəti üzrə dəstəkləyici funksiyanın icra edilməsi:* | | | |
| | | | | **4.1.** Yeni və yaxud inkişaf etməkdə olan sənaye sahələrində bazarlara giriş maneələrinin mövcudluğunun tədqiq edilməsi, bazarlarda hökmran mövqe vəziyyətinin, bazarın inkişafı mərhələsində qeyri-qanuni iqtisadi razılaşmaların, o cümlədən sürətli şəkildə bazarın ələ keçirilməsi kimi qeyri-rəqabətli iqtisadi davranışların olub-olmamasının təhlil edilməsi və nəticələri üzrə zəruri tədbirlərin görülməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Fuad Yadigarov |
| | | | | **4.2.** Müxtəlif sahələrdə təmərküzləşmə səviyyəsinin ölçülməsi və nəticələri üzrə hesabatın hazırlanaraq Komissiyaya təqdim edilməsi; | 01.12.2024 | | |
| | | | | **4.3.** İndikatora dair məlumatların aidiyyəti mənbələrdə öz əksini tapması üçün görülmüş işlərə dair məlumatların Dövlət Statistika Komitəsinə təqdim edilməsi. | 01.06.2024 | | Camal Vəlizadə, Fuad Yadigarov, Ceyhun Həsənov |
| 4 | **4.3.3 Daxili bazarın həcmi** | 74-cü yer, 178,7 bal | Daxili bazarın ölçüsü ölkə ÜDM-nin PPP qiymətləndirməsinə əsaslanan ÜDM-dir, milyard dollarlarla ölçülür. | **1.** *Bazarlarda çox iştirakçılılığın təmin edilməsi, bazar həcminin böyüməsi və həcmin stabilliyinin qorunub saxlanılması baxımından müvafiq bazarlardakı giriş maneələrinin tədqiq edilməsi və bu cür maneələr olduğu halda aradan qaldırılması üzrə konkret addımların atılması:* | | | |
| | | | | **1.1.** Bazara girişi məhdudlaşdıran patent-lisenziya hallarının olub-olmamasının təhlil edilməsi, bu cür giriş maneəsi olduğu halda müvafiq patentin və ya lisenziyanın verilməsi şərtlərinə yenidən baxılmasına dair təkliflərin verilməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Fuad Yadigarov, Şahin Nağıyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **1.2**. Birləşmə (qovuşma) və səhmlərin (payların) alqı-satqısı əməliyyatlarının müvafiq bazarlarda rəqabətə təsiretmə imkanlarının təhlil edilməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Fuad Yadigarov, Şahin Nağıyev |
| | | | | **1.3.** Bazarın həcminin az sayda subyekt əlində cəmləşməsinin təbii vəziyyətlə, yoxsa hökmran mövqedən sui-istifadə ilə əlaqədar olmasının aşkarlanması məqsədilə müvafiq araşdırmaların aparılması. | | | |
| | | | | **2.** İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.06.2024 | | Camal Vəlizadə, Fuad Yadigarov, Şahin Nağıyev |
| | | | | ***Dövlət satınalmaları*** | | | |
| 4. | **Dövlət satınalmaları** | - | - | **1.** Dövlət satınalmalarına dair yekun protokolların, qanunvericilikdən irəli gələrək müvafiq icra hakimiyyəti orqanının razılığının alınmasına dair müraciətlərin, habelə şikayət və digər növ müraciətlərin qeydiyyatının aparılması və müvafiq statistik hesabatların hazırlanması üçün daxili satınalma modulunun istifadəyə verilməsi və tam funksional vəziyyətdə çalışmasının təmin edilməsi | 01.07.2024 | İqtisadiyyat Nazirliyi (AİBNDX) | Əhməd Həsənov |
| | | | | **2.** Dövlət satınalmalarının vahid internet portalının (bundan sonra - portal) "Dövlət satınalmaları haqqında" yeni Qanuna uyğunlaşdırılması (optimallaşdırılması) prosesinin davam etdirilməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi (AİBNDX) (tərəfdaş şirkətlər cəlb edilməklə) | |
| | | | | **3.** Portalda yer alan məlumatların mümkün qədər avtomatlaşdırılması və mexaniki səhvlərin aradan qaldırılması üçün digər dövlət qurumları ilə inteqrasiya prosesində yeni Qanunun tələblərinə uyğun dəyişikliklərin edilməsi | | İqtisadiyyat Nazirliyi (AİBNDX), inteqrasiya olunacaq mərkəzi icra hakimiyyəti orqanları | |
| | | | | **4.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının yeni Qanunu ilə bağlı sahibkarların, satınalan təşkilatların və ictimaiyyətin məlumatlandırılması üçün müvafiq tədbirlərin görülməsi (görüş və təlimlərin keçirilməsi, təqdimatların və bildirişlərin göndərilməsi və s.) | 01.07.2024 | İqtisadiyyat Nazirliyi (AİBNDX) | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **5.** Müvafiq sahədə biznes mühiti və dövlət satınalmalarının vahid internet portalından istifadə ilə əlaqədar fokus qrupları (sahibkarlar, konsaltinq şirkətləri və digər maraqlı tərəflər) ilə sorğuların keçirilməsi, diaqnostikaların aparılması və nəticələrinə əsasən təkmilləşməni nəzərdə tutan silsilə təlimlərin təşkil edilməsi | 01.12.2024 | İqtisadiyyat Nazirliyi (AİBNDX) (Asiya İnkişaf Bankı cəlb edilməklə) | Əhməd Həsənov |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 5. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahələrdə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi. | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 6. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkə üzrə faktiki göstərici və ya qanunvericilik tələbləri barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması. | | | |